F. Köçərli adına Respublika Uşaq Kitabxanası

# Ədəbi maarifçiliyin görkəmli nümayəndəsi
# Süleyman Sani Axundov – 150



*(Veblioqrafiya)*

**Tərtib etdi: Məlumat-biblioqrafiya şöbəsi**

**Ağayeva İranə**

**Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə: (+99412) 597-08-79, daxili nömrə: 25**

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025.**

# Giriş

Süleyman Sani Axundov dramaturq, jurnalist, uşaq yazıçısı və pedaqoq kimi tanınır. Onun əsərləri bu gün də böyük maraqla oxunur.

Azərbaycan dramaturqu, maarif xadimi, nasir S.S.Axundov 1875-ci il oktyabrın 3-də Şuşa şəhərində anadan olmuşdur. Uşaq yaşlarından atasını itirdiyi üçün dayısı Səfərəli bəy Vəlibəyovun himayəsində böyümüşdür. 1885-1894-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil aldıqdan sonra III dərəcəli rus-tatar məktəbində müəllim işləmiş, 1920-1921-ci illərdə Qarabağ vilayətinin maarif şöbəsinin müdiri, 1922-1930-cu illərdə Bakıda məktəb müdiri vəzifələrində çalışmışdır.

S.S.Axundovun XX əsr Azərbaycan uşaq ədəbiyyatının inkişafında böyük xidmətləri olmuşdur. İlk əsəri olan "Tamahkar" komediyası ilə tanınmış yazıçı bu əsərini böyük dramaturq Mirzə Fətəli Axundzadənin "Hacı Qara" əsərinin təsiri ilə qələmə almışdır. Bundan başqa, yazıçı "Dibdat bəy", "Türk birliyi" komediyalarının, "Laçın yuvası", Qaranlıqdan işığa", "Şahsənəm və Gülpəri", "Səadət zəhmətdədir", "Molla Nəsrəddin Bakıda", "Eşq və intiqam" kimi pyeslərin və bir sıra uşaq əsərlərinin də müəllifi olmuşdur.

Görkəmli dramaturq 1912-1914-cü illərdə “Qorxulu nağıllar” adı altında “Əhməd və Məleykə”, “Abbas və Zeynəb”, “Nurəddin”, “Qaraca qız”, “Əşrəf” hekayələrini yazmışdır. Bu hekayələrdə valideynlərini itirmiş uşaqların acı taleyindən söhbət açılır. Oxucular bu silsilədən “Qaraca qız” hekayəsini xüsusilə sevirlər. Uşaqların mənəvi dünyası, həyatı, insanlığı sevmək və qiymətləndirməyi bacarmaq qabiliyyəti burada daha mənalı verilib. “Qaraca qız” əsasında eyniadlı film çəkilib. 1948-ci ildə isə şair, yazıçı, Azərbaycan uşaq dramaturgiyasının klassiki Abdulla Şaiq bu hekayə əsasında Gənc Tamaşaçılar Teatrı üçün eyniadlı pyes yazmışdır. Həmin vaxtdan əsər ölkənin bir çox teatrlarında tamaşaya qoyulub.

1920-ci ildən sonra yazdığı əsərlərdə də geriliyi və mühafizəkarlığı tənqid edən Süleyman Sani Axundov 1939-cu il martın 29-da 63 yaşında vəfat etmişdir.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat-Biblioqrafiya şöbəsi Süleyman Sani Axundovun 150 illiyi münasibətilə dramaturq haqqında olan çap məhsullarının tammətnli biblioqrafik siyahısının, görkəmli şəxsiyyətlərin onun haqqında söylədikləri fikirlərin yer aldığı veblioqrafiya hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Görkəmli şəxsiyyətlər Süleyman Sani Axundov haqqında

XX əsrin əvvəllərində artıq dünya mədəniyyəti ilə yaxından tanış olan qabaqcıl ziyalılarımız çox yaxşı dərk edirdilər ki, beş-on ziyalı ilə bir millətə nicat vermək olmaz. Buna görədə yeni ruhlu, mübariz ziyalı nəsli yetişdirmək vacibdir. Demokratik fikirli bütün müəllimlər, yazıçılar, maarif xadimləri yeni nəslin 9 tərbiyəsinə böyük əhəmiyyət verdilər. Bu işdə M.Ə.Sabir, M.F.Axundovun fəaliyyəti ilə yanaşı Süleyman Sani Axundovun da fəaliyyəti yüksəkdir.

Süleyman Sani, hər şeydən əvvəl bir müəllim idi. Onun bədii yaradıcılığı da öz ilhamını bu müəllimlikdən alırdı.

**Məmməd Arif**

*professor*

Qorxulu nağıllarda hər bir əsərdə həqiqət ünsürləri vardır.

**Qafur Rəşad Mirzəzadə**

*tərcüməçi, pedaqoq*

XX əsrdə burjua ideoloqları ilə demokratik yazıçıların mübarizə etdiyi bir dövrdə Süleyman Sani Axundov realizm, demokratizm cəbhəsini tutmuş və "Füyzat"çıların ziddinə olaraq təmiz Azərbaycan dilində əsərlər yazmışdır.

**Cəfər Xəndan**

*professor*

Hekayə yazmaq həvəsində olan cavanlarımız möhtərəm Süleyman Sani cənablarını təqlid edərlərsə, qazanclı çıxacaqlarına şübhə edilməməsi gərəkdir.

**Məktəb jurnalı**

## Kitabları




**Əhməd və Məleykə** : Nağıllar və hekayələr / S.S Axundov ; red. S. Məmmədova ; rəs. R. Babayev . - Bakı : Gənclik, 1987. - 78, [2] s. : rəngli il. ; 22 sm. - kiril əlifbası ilə.

Kitabda doğma yurdumuzun təbii gözəllikləri: göylərə baş çəkən dağlar, güllü-çiçəkli çəmənlər, şıltaq şəlalələr məhəbbətlə təsvir edilir.




**Qaraca qız** / S. S.R. Axundov ; red. D. İsmayılov ; rəs. N. Yunusov. - Bakı : CBS Polygraphic production, 2001. - 54 s. : rəngli il. ; 20 sm.

Bu kitabda yetim Tutunun - Qaraca qızın kədərli taleyi, onun Piri babaya və Ağca xanıma məhəbbəti, Pəricahan xanımın qəddarlığından söz açılır.




**Qaraca qız** / S.S. Axundov ; red. M. Arif. - Bakı : Azərnəşr, 1943. - 37 s. : il. ; 18 sm. - kiril əlifbası ilə.




**Qaraca qız** : Kiçik yaşlı məktəblilər üçün / S.S Axundov ; red. Ş. O. Məmmədova ; rəs. R. Babayev . - Bakı : Gənclik, 1992. - 32 s. : rəngli il. ; 28 sm. - kiril əlifbası ilə.




**Qorxulu nağıllar** : Hekayə / S.S.Axundov ; red. R. İsmayılov ; rəs. Z. Cabbarov. - Bakı : Altun kitab, 2005. - 112 s. : şək. ; 20 sm.

İstedadlı ədibin uşaqlara həsr olunan bir sıra əsərləri arasında "Qorxulu nağıllar" silsiləsindən olan "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız" və "Əşrəf" əsərləri daha məşhurdur.




**Laçın yuvası** : 3 pərdəli dram / S.S Axundov. - Bakı : Uşaqgəncnəşr, 1950. - 45 s. - kiril əlifbası ilə.

Bu kitab Süleyman Sani Axundovun uşaq və gənclər üçün yazdığı tərbiyəvi, vətənpərvər ruhlu əsərlərinin parlaq nümunələrindən biridir. Müəllif sadə, lakin dərin mənalı süjet vasitəsilə oxucuda həm təbiətə, həm də insani duyğulara hörmət hissi oyadır.

**Mister Qireyin köpəyi** / S.S. Axundov ; red. A. Aslanov. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1948. - 8 s. : rəng.il. ; 22 sm. - kiril əlifbası ilə.




Bu hekayədə Mister Qirey adlı varlı adamın köpəyinə olan münasibəti onun mənəvi səviyyəsini açır, oxucunu mərhəmət, ədalət və vicdan kimi anlayışlar üzərində düşünməyə vadar edir.




**Nurəddin** / S.S. Axundov ; red. Ə. Əhmədov ; rəs. D. Kazımov. - Bakı : Azərnəşr, 1963. - 60 s. : il. ; 20 sm. - kiril əlifbası ilə.

S.S.Axundovun (1875-1939) uşaqlar üçün yazdığı "Qorxulu nağıllar" adlı hekayələr məcmuəsi onun yaradıcılığında əsas yerlərdən birini tutur. Bu hekayələrdə zülmkarlığa nifrət, məzlumları müdafiə məsələsi çox qabarıq şəkildə qoyulmuşdur. "Nurəddin" hekayəsi bu cəhətdən çox səciyyəvidir.

**Seçilmiş əsərləri** / S. S.R. Axundov ; tərt.ed. X. Məmmədov ; red.hey.: Ə. Quliyev, N. Nəcəfov, B. Həsənli ; rəs. R. Əliyev. - Bakı : Kitab Klubu, 2017. - 480 s. : portr. ; 25 sm.




Bu kitabda ədibin zəngin ədəbi irsindən seçmələr - müəllifin maarifçi ideallarının təsdiqi olan bədii nəsr əsərləri (hekayələr) və pyeslər toplanmışdır.




**Seçmə hekayələr** : Hekayələr / S. S.R. Axundov ; red. F. Şıxlinski ; tərt. ed. R. İsmayılov ; rəs. E. Cabarov. - Bakı : Altun Kitab, 2015. - 208 s. ; 20 sm.

Bu kitabda dramaturq Süleyman Sani Axundovun "Kövkəbi-hürriyyət", "Yuxu", "Qonaqlıq", "Molla Qasım" və b. hekayələri, "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin" və b. kimi qorxulu nağılları ilə tanış olacaqsınız.

## Əsərləri kitablarda

**Süleyman Sani Axundov (1875-1939)** / Azərbaycan nəsri antologiyası : 5 cilddə / tərt. ed., ön söz Z. Ş. Əsgərli, bur. məsul Ə. Güləliyev. 2-ci cild : XX əsrin əvvəlləri / Ə. Ə. Haqverdiyev [et al.]. - Bakı : Şərq-Qərb, 2006. – S. 114-158.




Kitabda XX əsrin əvvəlləri Azərbaycan nəsrinin nümayəndələrindən Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət və s. nəsr əsərlərindən nümunələr verilmişdir.

## Haqqında kitablarda




**Vəlixanov, N.** Süleyman Sani Axundov / N. Vəlixanov ; elmi red. K. Talıbzadə ; Azərb.SSR EA Nizami ad. Ədəbiyyat və Dil İnstitutu. - Bakı : Gənclik, 1968. - 171 s. - kiril əlifbası ilə.

Müəllifin bu kitabı Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Süleyman Sani Axundovun maarifçi ideyalarını, pedaqoji və bədii fəaliyyətini, xüsusilə uşaq ədəbiyyatına verdiyi töhfələri təhlil edir.

**Vəliyev, M.** S.S.Axundov / M. Vəliyev. - Bakı : Uşaqgəncnəşr, 1956. - 110 s. - kiril əlifbası ilə.




M. Vəliyevin "S.S.Axundov" kitabı Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi Süleyman Sani Axundovun həyat və yaradıcılığını elmi əsaslarla təhlil edən tədqiqat əsəridir. Əsər həm tələbələr, həm də ədəbiyyatla maraqlanan oxucular üçün dəyərli mənbə rolunu oynayır.

## Haqqında dövri mətbuatda

**Abbaslı, T.** Əbədi humanizm ədibi - əsərlərilə neçə-neçə nəsillər böyütmüş Süleyman Sani Axundov / Tahir Abbaslı // Mədəniyyət. – 2012. – 30 mart. – S. 12.

**Abbaslı, T.** Süleyman Sani Axundov – böyük uşaq demokratı / Tahir Abbaslı // Mədəniyyət. – 2011. – 5 oktyabr.

**Abdullayev, B.** Xalqın nəfəsi ilə / Bəhlul Abdullayev //Ədəbiyyat və incəsənət. – 1975. – 15 noyabr.

**Allahverdioğlu, P.** "Qorxulu nağıllar"da təhsil və tərbiyə məsələləri / Pəncəli Allahverdioğlu // Azərbaycan məktəbi. – 1968. - № 7. – S. 71-76.

**Əhmədalılar, T.** Uşaqların böyük yazıçısı – Onun "Qorxulu nağıllar"ı hələ də doğrulu ağıllar yetişdirir… / Tahir Əhmədalılar // Mədəniyyət. – 2013. – 29 mart. – S. 13.

**Fərəcov, S.** Müəllim yazar – ikinci Axundov / Savalan Fərəcov // Mədəniyyət. - 2019. - 4 oktyabr. - S. 7.

**Fərəcov, S.** O, əsərləri ilə oxucuları tərbiyə etməyə çalışırdı / Savalan Fərəcov // Mədəniyyət. - 2012. - 12 oktyabr. - S. 15.

**Fərəcova, Z.** Axundovlar : Şuşanın tanınmış nəsilləri / Zöhrə Fərəcova // Azərbaycan. – 2022. – 24 iyun. – S. 7.

**Görkəmli uşaq yazıçısının yubileyi qeyd olunub** // Mədəniyyət. - 2015. - 28 oktyabr. - S. 7.

**Hüseynov, R**. Həyat qədər təbii / R. Hüseynov // 525-ci qəzet. - 2023. - 21 oktyabr. - № 191. - S. 14-15.

**Hüseynov, R.** Süleyman Saninin Qarabağa dönüşü / Rafael Hüseynov // 2023. – 25 oktyabr. - № 193. - S. 10-11.

**İsmayılova, N.** Qaraca qız hekayəsinin tədrisi təcrübəsindən / Nazlı İsmayılova // Azərbaycan müəllimi. - 2010. - 19 noyabr. - S. 4.

**Kitabxanada Süleyman Sani Axundovun yubiley tədbiri** // Mədəniyyət. - 2015. - 6 noyabr. - S. 13.

**Məmmədov, X.** Ədibin naməlum tərcümeyi halı / Xeyrulla Məmmədov // Ədəbiyyat və incəsənət. – 1975. – 27 dekabr. – S. 5.

**Mustafayev, M.** Azadlıq və demokratik ideyaların təbliği / Mustafa Mustafayev // Azərbaycan müəllimi. – 1975. – 10 dekabr.

**Mustafayeva, G.** Süleyman Sani Axundovun pedaqoji-ictimai fəaliyyəti / Göyərçin Mustafayeva // Ədalət. – 2011. – 20 may. – S. 4.

**Qarabağın məşhur müəllimləri : Süleyman Sani Axundov** //Mədəniyyət. - 2020. - 30 oktyabr. - S. 7.

**Rəsulov, Q.** İstedadlı ədib və müəllim / Q.Rəsulov // Bakı. – 1965. – 20 oktyabr.

**Rəsulova, İ.** Qorxulu nağılların yarandığı, qorxulu nağılların yaşandığı evin sahibi – Süleyman Sani Axundov / İlhamə Rəsulova // Yeni Azərbaycan. – 2022. – 5 fevral. – S. 7.

**Rüstəm, S.** Sağ ol, müəllimim Süleyman Sani / Süleyman Rüstəm // Ədəbiyyat və incəsənət. – 1975. – 27 dekabr. - № 52.

**Rüstəm, S.** Unudulmaz müəllim / Süleyman Rüstəm // Bakı. – 1966. – 18 yanvar.

**Rüstəmli, R.** Süleyman Sani Axundov - unudulmaz uşaq hekayələrinin müəllifi / Röya Rüstəmli // Respublika. – 2024. – 3 oktyabr. - № 216. – S. 11.

**Rüstəmov, S.** Süleyman müəllimi xatırlayarkən / Səid Rüstəmov // Azərbaycan gəncləri. – 1966. – 19 yanvar.

**Vəlixanov, N.** Bizim sevimli yazıçımız / Nadir Vəlixanov // Pioner. – 1990. - № 11-12. – S. 2.

**Vəlixanov, N.** Görkəmli maarif xadimi, yazıçı-tərbiyəçi / Nadir Vəlixanov // Azərbaycan məktəbi. – 1965. - № 10. – S. 70-74.

**Vəlixanov, N.** Gözəl fikirlər təbliğatçısı / Nadir Vəlixanov // Bakı. – 1966. – 18 yanvar.

**Vəlixanov, N.** Süleyman Sani Axundovun komediyaları / Nadir Vəlixanov // Azərbaycan. – 1965. - № 11. – S. 118-124.

**Vəlixanov, N.** Yeni həyatın tərənnümçüsü / Nadir Vəlixanov // Ədəbiyyat və incəsənət. – 1965. – 23 oktyabr. – S. 2.

**Zakiroğlu (Baharlı), O.** Soykökünə bağlı görkəmli ədib : Azərbaycanın görkəmli dramaturqu, maarif xadimi Süleyman Sani Axundovun anadan olmasından 140 il keçir / Orxan Zakiroğlu (Baharlı) // Kaspi. – 2015. – 20 oktyabr. - № 71. – S. 15.

**Zamanov, A.** Əsrinin oğlu / Abbas Zamanov // Kommunist. – 1975. – 24 dekabr.